# YADDAN ÇIXMAZ İLK MƏHƏBBƏT

**Hər bir şairin sevdiyi və seçdiyi mövzular olur. Daha doğrusu, ürəyinə nə yatırsa, qəlbinin səsi nəyi deyirsə, elə onu da şeirə, poeziyaya çevirir. Zeynəb Bəhmənli də belə şairə xanımlardandı. Onun bu yaxınlarda yeni bir şeirlər kitabı - "Həsrətini gözlərimə yığmışam" işıq üzü görüb. Təbii ki, Zeynəb Bəhmənli hər hansı şeiri qələmə almamışdan öncə onu qəlbində, ürəyində əzizləyir, seçir, seçmələyir və bundan sonra şeirə çevirir. Şeirin nə dili var, nə ağzı, nə də qulağı. Amma yaxşı şeir sənə hər şey deyir. Məhz bu kitabda da onun müxtəlif mövzularda qələmə aldığı şeirlər yer tutur.**

Zeynəb Bəhmənli Vətənin hər qarış torpağını, yurdunu, elini, obasını sevir və onu vəsf eləyir. O, bəlkə də döyüş bölgələrində olduğuna görə, əsgərlərimizlə görüşdüyü üçün bu şeirlərdən vətən ətri, əsgər qoxusu gəlir. "Azərbaycan əsgəri" şeirinin iki bəndinə diqqət yetirək:

*Vətən sənə güvənir, sən vətənin dayağı,*
*Qalx, kəsilsin vətəndən qanlı yağı ayağı,*
*Al əlinə yenilməz o üç rəngli bayrağı,*
*Düz Şuşaya yürüş et, Azərbaycan əsgəri!*

*Kəlbəcər, Laçın, Şuşa hər gün yolunu gözlər,*
*Qubadlı, Zəngilan illərdi səni səslər,*
*Cəbrayıl, Füzuli səni nə vaxt özlər,*
*Qalx, ey xalqın dayağı, Azərbaycan əsgəri!*

Qoy bu misralara hörmətli oxucular dəyər versinlər. Çünki şairin şeirinə, poeziyasına ən obyektiv və düzgün qiyməti verən də elə onun sadiq oxucusudur. Yəqin Zeynəb Bəhmənlinin də belə sadiq oxucuları az deyil.

Onun Vətənə bağlılığı tək bu şeirlə, bu bəndlə tamamlanmır. Kitabı vərəqlədikcə bu qəbildən olan şeirlərə tez-tez rast gəlirsən. "Xocalı", "Bəhmənli", "Füzulim" şeirlərim bu ruha çox yaxındır:

**Kədər şikəstəli, dərd avazlıyam,**
**Sinəm qəm dəftəri, sözlü-sazlıyam.**
**Dahi Füzulinin Zeynəb qızıyam,**
**Dərdinə qurbanam, özüm Füzuli!**

Əlbəttə, Vətən dərdi çox ağır bir nisgildir. Və bu dərdə qurban olmaqla heç vətənin dərdi də, qəmi də yüngülləşmir. Vətən üçün qurban olmaqdan çox onun uğ-




runda mücadilə eləmək, döyüşmək, vuruşmaq lazımdır. Lap elə bizim qeyrətli, namuslu əsgərlərimiz kimi. Çünki onlar ancaq döyüşüb, vuruşub yağı düşməni məhv edib torpaqlarımızı geri qaytarırlar. Yəni vətəni sevməklə yanaşı, onun uğrunda ölmək yox, döyüşmək lazımdır. Təbii ki, şairənin şeirlərində bu elementlər və cizgilər də özünü göstərir.

Zamanın gərdişi, amansızlığı və bir az da sərt desək, rəhmsizliyi Zeynəb Bəhmənlinin diqqətindən yayınmır. O, zamanın necə amansız olduğunu və insana rəhm etmədiyini bir daha poetik bir formada oxucuya çatdırır:

***Zamanda çox sınağa çəkildim,***
***Arzularım zəmi kimi biçildi,***
***Ələndim, taleyi kəm mən seçildim,***
***İlmələndi, ömür xalım söküldü.***

Hər insan təbii ki, öz taleyini yaşayır. Və o taleyi də yazan Ulu Yaradandı. Allahın yazdığı taledən isə heç şikayət eləməyə dəyməz! Çünki Allah-Təala alnına bunu yazıbsa, bunu da qəbul eləməlisən. İstəyirsən yerə gir, istəyirsən göyə çıx, istəyirsən də dünyanı bir-birinə qarışdır, Allahın yazısına pozu yoxdu. Və bəzən biz bu İlahi yazıya etiraz eləyirik və Yaradandan küsürük. Biz dərdi də, kədəri də sevə-sevə daşımalıyıq. Ramiz Rövşən yazır ki, "kədərsiz ürək susuz dəyirman" kimi bir şeydi. Zeynəb Bəhmənli həm də öz el-obasına - Füzuliyə, Bəhmənliyə bağlı bir şairədir. O, elin, obanın, kəndin-kəsəyin xeyrində, şərində iştirak eləyir. Təbii ki, insan yurda bağlı olmasa və doğulub boya-başa çatdığı torpaq onu özünə çəkməsə, o, vətənə can atmaz. Elə Zeynəb xanımın da ən gözəl xüsusiyyətlərindən biri doğulub boya-başa çatdığı el-obanı yaddan çıxarmamağıdır. Çünki adam var yüksək vəzifə pilləsinə qalxır - nazir olur, akademik adına layiq görülür, xalq şairi adını qazanır, ancaq doğulub boya-başa çatdığı torpağa bir dəfə yolu düşmür. Nə xeyirdə görünür, nə də şərdə. Amma Zeynəb Bəhmənlini elin-obanın xeyrində də görmək olur, şərində də.

O, hər şeyi çox sevir; Vətəni çox sevir, onun ormanlarını, dağlarını, meşələrini, çaylarını, güllərini, çiçəklərini çox sevir, çox istəyir. Ona görə də şeirlərində bu motivləri və detalları canlandırmağa çalışır. Daha doğrusu, ürəyindən nə keçirsə, o duyğuları və istəkləri oxucu ilə bölüşür.

Zeynəb Bəhmənlinin çox böyük ürəyi var. Onun üçün ilk məhəbbət nədir və necədir o daha yaxşı bilir. Bu Allahdırmı? Bu Vətəndirmi? Bu bir eşqdirmi? Bax, bunu deyə bilmərik. Bunu şairə "İlk məhəbbətim" şeirində belə ifadə eləyib. (Onu da deyək ki, bu şeirə məşhur bəstəkar Məmməd Cavadov musiqi də bəstələyib):

***İllərlə könlümdən nə silə bildim,***
***Mən sənsiz yaşaya, nə ölə bildim,***
***Vallah, nə ağlaya, nə gülə bildim,***
***Əbədi cəfalı ilk məhəbbətim.***

***Bir quşam qanadı, qolu qırılmış,***
***Bir dost gülləsiylə göydə vurulmuş,***
***Zeynəbin qəlbində qəmdən qurulmuş,***
***Uçulmaz qalalı ilk məhəbbətim!***

**Hər halda, şairə xanımın ürəyi də, qəlbi də sevdiyinə çox sədaqətlidi. Elə oxucuları da ona sədaqətli olub "Həsrətini gözlərimə yığmışam" kitabını vərəqləsələr, Zeynəb Bəhmənlini yenidən tanıyacaq, sevəcək və onu yadda saxlayacaqdı. Çünki hər hansı bir yazara, şairə ən düzgün və obyektiv qiymət verən oxucudur.**

**Faiq QİSMƏTOĞLU**

ədalə t.- 2020.- 25 avqust.- S.7.